UOT 94 (479.24)

# XIII ƏSRDƏ AZƏRBAYCANDA SİYASİ VƏZİYYƏT "İRANIN KEMBRİC TARİXİ" ƏSƏRİNDƏ

**E.R.MÜSLÜMOV**
***Bakı Dövlət Universiteti***
***elnur-muslumov@mail.ru***

*Məqalədə XII əsrin sonları-XIII əsrin əvvəllərində Azərbaycanda cərəyan edən siyasi proseslər araşdırılmışdır. Məlumdur ki, hər bir ölkənin tarixinin öyrənilməsində mənbələr mühüm yer tutur. Belə mənbələrdən biri də "İranın Kembric tarixi" əsəridir. Əsərdə bir çox ölkələrin tarixi ilə yanaşı, Azərbaycan tarixinə də yer verilmişdir. İngiltərədə 1968-ci ildə işıq üzü görmüş "İranın Kembric tarixi" əsərinin 5-ci cildi Azərbaycanın XI-XIV əsrlər tarixinin öyrənilməsində mühüm mənbələr sırasına daxil edilə bilər. Düzdür, əsərdə bir sıra çatışmayan cəhətlər özünü qabarıq şəkildə göstərir. Məsələn, Azərbaycan əsasən İran dünyasının tərkib hissəsi kimi nəzərdən keçirilir, eyni zamanda burada ərəbdilli mənbələrə geniş şəkildə istinad edilmişdir. Ancaq bütün bunlara baxmayaraq, adı çəkilən bu əsər Azərbaycanın bəhs olunan dövrünün işıqlandırılmasında öz töhvəsini bəxş edir.*

**Açar sözlər:** Kembric tarixi, Azərbaycan, siyasi vəziyyət, Xarəzmşahlar dövləti, Azərbaycan Atabəylər dövləti

XII əsrin sonu XIII əsrin əvvəllərində Azərbaycan və bir sıra Şərq ölkələri regionda cərəyan edən siyasi hadisələrin burulğanında mərkəzi yerlərdən birini tuturdu. Şəmsəddin Eldənizin əsasını qoyduğu Azərbaycan Atabəyləri dövləti şərqdə və qərbdə bir sıra dövlətlərlə daim münaqişə və ziddiyyətlərdə olmuşdur. Amma bütün bunlara baxmayaraq Azərbaycan Atabəyləri dövləti yeritdiyi uğurlu siyasət nəticəsində qərbdə daim münaqişə vəziyyətində olduğu Gürcü dövlətinin hücumlarına lazımi şəkildə cavab vermişdi.

Dövrün tədqiqatçısı akademik V.V.Bartold yazır ki, Xarəzm, demək olar ki, həmişə ayrıca bölgə olub, öz müstəqilliyi ilə faydalanırdı, lakin bütün böyük dövlətə çevrilməsi yalnız bircə dəfə - XII-XIII əsrlərdə baş verdi. Xarəzm hakimləri səlcuq sultanlarının canişinləri olaraq onların yerlərini tutmuş və bütün İranın və müsəlman dünyasının qərb hissəsinə hakim olmaqdan ötrü onların zəifliyindən istifadə etmişdilər. Xəzərin şərq və cənub sahillərində yerləşən bölgələrə gəldikdə, onlar hələ XII əsrdə xarəzmlilər tərəfindən fəth edilmişdir [2, 56].

İngiltərədə 1968-ci ildə işıq üzü görmüş "İranın Kembric tarixi" əsərinin 5-ci cildi Azərbaycanın XI-XIV əsrlər tarixinin öyrənilməsində mühüm mənbələr sırasına daxil edilə bilər. Düzdür, əsərdə bir sıra çatışmayan cəhətlər özünü qabarıq şəkildə göstərir. Məsələn, Azərbaycan əsasən İran dünyasının tərkib hissəsi kimi nəzərdən keçirilir, eyni zamanda burada ərəbdilli mənbələrə geniş şəkildə istinad edilmişdir. Ancaq bütün bunlara baxmayaraq, adı çəkilən bu əsər Azərbaycanın bəhs olunan dövrünün işıqlandırılmasına öz töhvəsini bəxş edir.

"Kembric tarixi"ndən son Eldənizlər haqqında yazılır: "Məhəmməd Cahan Pəhləvan 1186-cı ildə öldü və Türk məziyyətlərinə müvafiq olaraq taxta Qızıl Arslan keçdi. Amma Pəhləvan öz şəxsi mülklərini 4 oğlu arasında bölmüşdü və bu bölünmə ixtilaf və zəifliyin əsas mənbəyini təşkil edirdi. Pəhləvanın arvadı İnanc Xatun və qızı öz oğlunun istəklərini Pəhləvanın anaları qul olan digər iki uşağına qarşı dəstəkləyirdi; bu sonunculardan biri, Əbu Bəkr Qızıl Arslan tərəfindən xüsusi rəğbətlə qarşılanır və belə görünürdü ki, o, artıq bütün Eldəgizlərin varislik taxtına yiyələnmişdi [4, 180].

Qeyd etmək lazımdır ki, Cahan Pəhləvanın bütün sabiq məmlüklərinin Qızıl Arslanın tərəfində olması, mövqeyinin möhkəmlənməsi İnanc xatunu heç də qane etmirdi. O, mərhum ərinin sabiq məmlükləri Əmir Camal əd-Din Ay-Aba və Seyfəddin Rusla gizli danışığa girərək, onların sultan III Toğrulun tərəfinə keçmələrinə nail olur. Zəncan, Əbhər və Marağa hakimləri də onlara qoşulurlar. Onların birləşmiş qüvvələri 1187-ci ildə Həmədan yaxınlığında Qızıl Arslanın ordusu ilə üzləşir; bir neçə gün davam edən döyüşlərdən sonra Qızıl Arslanın ordusu geri çəkilir [1, 377]. Bu hadisə barəsində "Kembric tarixi" ndə yazılır: "Toğrul İnanc Xatunun oğlu Qutluq İnanc Məhəmmədin yardımı ilə Qızıl Arslan və Əbu Bəkrə qarşı ittifaqa daxil oldu. 1187-ci ildə o, Bavandid Husama al Duala Ərdəşirdən kömək üçün Mazandaranda idi. Həmçinin, o, həmin ildə Bağdada diplomatik nümayəndə göndərib bildirdi ki, Səlcuq Sultanlarının keçmiş əraziləri onun tabeliyi altında bərpa olunmalıdır. Əl Nasirin cavabı xəlifənin birbaşa vassalı olmağa razılaşmış Qızıl Arslana yardım etmək üçün vəziri Cəlaləddin Ubeydullah ibn Yunusun rəhbərliyi ilə 15000 dəstədən ibarət ordunun göndərilməsi və şəhərin tamamilə yerlə-yeksan edilməsi oldu. Toğrul 1 188-ci ildə Həmədan yaxınlığında Dai-Marqda xəlifə qüvvələrini məğlubiyyətə uğratdı, ancaq o, sərbəstliyini və Həmədanda rəqiblərin sifarişlərini itirdi. Qızıl Arslan indi Səncər ibn Süleyman Şahı sultan kimi təyin etdi və Toğrulu Urmiya Gölü regionuna qovdu [4, 180]."

Göründüyü kimi, adı çəkilən mənbələrin demək olar ki, hamısı son Eldənizlər dövründə Azərbaycanda yaranmış siyasi vəziyyətin qeyri-müəyyənliyini təsdiqləyir. Məhz bu qarmaqarışıqlıqdan sonra adı çəkilən əsərdə Xarəzmşahların regionda, daha dəqiq desək Azərbaycanda təsirləri hiss olunmağa başlayır.

"Kembric tarixi" nin 181-ci səhifəsində göstərilir: "İndi Qızıl Arslan özü səltənətə yiyələnməyi tələb etdi; amma növbəti ildə o, müəmmalı şəkildə, ola

bilsin ki, öz əmirlərindən biri, yaxud qardaşının ölümündən sonra evləndiyi İnanc Xatun tərəfindən öldürüldü. İnanc Xatun ikinci alternativə istiqamətləndi. Azadlıqdan məhrum ediləndən iki il sonra Toğrul Azərbaycan əmirlərindən biri tərəfindən azad edildi. Qəzvin yaxınlığında o, tez bir zamanda İnanc Xatunun iki oğlu, Qutluq İnanc və Əmir Əmiran Umarı məğlub etdi və onları 1192-ci ildə Azərbaycana qovdu. Burada onlar yenidən, ancaq bu dəfə Naxçıvanda olan ögey qardaşları Əbu Bəkr tərəfindən məğlub edildi, amma Gürcüstan və Arranın köməyi ilə onlar geri qayıtdı və Əbu Bəkri məğlub etdi. Toğrul indi Cibəl, Həmədan və İsfahanın sahibi idi və o, Pəhləvandan qalmış xəzinələri ələ keçirmişdi. Amma bu ərəfədə Eldəgizlərdən daha təhlükəli olan düşmən peyda olmuşdu" [4, 181].

Qeyd etmək lazımdır ki, Əl-Hüseyninin məlumatlarına görə, Cahan Pəhləvanın Qüteybə xatundan olan oğlu Əbu Bəkr bir şəhərdən digərinə gedir, hamı ona təslim olurdu; beləliklə, o, bütün Azərbaycana və Arrana sahib olur. Qoşunlar onun ətrafında cəmləşir və o, atasının və babasının yerində bərqərar olur [1, II c., 379]. Göründüyü kimi, dövlət Cahan Pəhləvanın oğulları arasında bölünür, siyasi pərakəndəlik hökm sürürdü.

Hadisələrə aydınlıq gətirən "Kembric tarixi" ndə göstərilir ki, Qutluq İnanc 1192-ci ildə Mazandaran, daha sonra isə Reyə gələn və xəlifədən sonra qərbi İranın onun adını tanıması üçün xütbə oxunmasını tələb etmiş Xarəzmşah Təkişdən kömək istədi. Bu istəklərdən sonra qardaşı Sultan Şah tərəfindən Xarəzm üzərinə hücum planlarını alan Təkiş Xorasana qayıtmağa məcbur oldu. Buna görə də Təkiş Toğrulla sülh bağladı, ancaq sultan Reydə olan Xarəzm qoşunlarının Cibəl və Azərbaycana yürüşə hazırlaşdıqlarını hiss edərək qorxuya düşsə də, bir təhər dözməli oldu; şübhəsiz ki, onun nüfuzu da artıq mürəkkəb idi. Xəlifə əl Nasirin inandırmasına baxmayaraq, Təkiş Xorasanda diqqəti yayındırmağa çalışmışdı və sanki onun Toğrula qarşı heç bir düşmənçilik güdmədiyi görünürdü.

Göründüyü kimi, Xarəzmşahlarla Azərbaycan arasında münasibətlər daha çox siyasi hakimiyyətin zəifləməsi ilə hərbi yardım məqsədilə müraciətdən sonra qurulurdu ki, bu da gələcək asılılığın əsası üçün zəmin hazırlayırdı.

Araşdırmalar nəticəsində məlum olur ki, Təkişdən sonra Xarəzmdə hakimiyyəti ələ alan Məhəmməd qonşu ölkələrə, o cümlədən Azərbaycana bir sıra yürşlər etmiş, bu əraziləri özündən asılı hala salmışdır.

Akademik V.V.Bartold yazır ki, Xarəzmşah Məhəmməd Ön Asiyadakı qələbələrindən sonra özünə "İkinci İsgəndər" ünvanını götürmüşdü. Bu onu göstərir ki, o, dünya imperiyası ideyasının nümayəndəsi idi. Belə bir titulu qəbul etdikdə, xarəzmşah izah edirdi ki, onun cəhdləri müsəlman aləmindəki fəthlərlə məhdud deyildir və o, bütün Şərqin, o cümlədən Çinin işğalı haqqında da fikirləşir. Xarəzmşah Çingiz xanın yanına öz səfirliyini göndərməklə yoxlamaq istəyirdi ki, doğurdanmı Çingiz xan Məhəmmədin özünün işğal etmək arzusunda olduğu ölkəni fəth etmişdir... [2, 60].

Yazılı mənbələrə istinad edən akademik Z.Bünyadov yazır ki, məhz bu vaxt Təkişin oğlu Tacəddin Əli Şah Əbu Bəkrin ərazisinə hücum edir. Lakin Əbu Bəkr-"xaqan, islamın padşahı, dünya və dini işlərdə zəfərlər çalan-Xarəzmşah Təkişin oğlu Əli şahla vuruşur, onu öldürür və çox adamı qətlə yetirir. Bundan sonra o əmr edir ki, Heydəriyyə qalasını dağıdıb, onun divarlarını xəndəyə atsınlar" [3, 118].

Yuxarıda sadalananlara aydınlıq gətirmək üçün Eldənizlərin son dövrlərində Azərbaycanda yaranmış siyasi vəziyyəti digər mənbələr əsasında öyrənmək daha doğru olardı.

Qeyd etmək lazımdır ki, Azərbaycanın dördüncü atabəyi Əbu Bəkr haqqında məlumatlar çox azdır. Yazılı mənbələr isə bu məsələdə siyasi hakimiyyətdə olan Əbu Bəkri bir qədər mənfi tərəfdən səciyyələndirir. Məsələn, tarixçi Ravəndi Əbu Bəkrin Azərbaycana köçməsini səhv addım kimi qiymətləndirərək təəssüflə yazır ki, o, ağzınadək sərvətlə dolu, əmin-amanlığın bərqərar olduğu ölkəni ən alçaq adamların ixtiyarına verdi... Mən bu adamların cinayətlərini necə təsvir edim? Vəzirin yerini, əmirin vəzifəsini eləlləri tutmuşdular ki, adam hətta onların adlarını çəkməyə belə utanır [8, 400]. Yalnız Kembric tarixi"ndə sadalanan məlumatlar Cüzcaninin onun fəaliyyəti barəsində söylədikləri müsbət fikirlərlə eyniyyət təşkil edir: "Əbu Bəkr böyük hökmdar idi. O, ədalətli hakim idi və öz torpaqlarının hüdudlarını düşmənlərdən qoruyurdu. O, imamların və alim adamların hamisi idi. İraq, Arran və Azərbaycanda mədrəsə və məscid, Marağada çox böyük mədrəsə tikdirmişdi. Onun özünün və atasından qalma çoxlu məmlükləri var idi ki, onların hər biri İraq şəhərlərindən birinə sahib idi" [6, 77].

Əlbəttə, bu məlumatlara bir qədər tənqidi yanaşmaq lazımdır, əgər nəzərə alsaq ki, dövrün siyasi prosesləri ölkəni çətin duruma salmışdı, müxtəlif qruplaşmalar meyadana gəlmişdi, onda biz Əbu Bəkrin qonşu dövlətlərlə olan münasibətlərini bir daha aydınlaşdırmış olarıq.

Məlumdur ki, Əbu Bəkrin ölümündən sonra onun tabeliyində olan mülklərini qardaşı Özbək idarə etməyə başlayır. Onun hakimiyyəti illərində də siyasi vəziyyətin qənaətbəxş olmaması Azərbaycanı çıxılmaz hala salır, düşmən qüvvələrlə üz-üzə qoymuşdu.

"Kembric tarixi" nin 5-ci cildində Sultan Cəlalədinin hakimiyyətə gəlməsindən sonra Azərbaycanla olan münasibətlərə bir qədər geniş yer verilmişdir. Burada Azərbaycanla bağlı hadisələr isə, əsasən, Xarəzmşah Cəlaləddinin atasının sabiq düşməni xəlifə ilə olan münasibətləri aydınlaşdırmaq məqsədilə aparılan mübarizələrin gedişində toxunulur. Əsərdə yazılır ki, 1224/1225-ci ilin qışında Cəlaləddin komandanlığı altında olan hərbi qüvvələrlə atasının düşməni xəlifə ilə mübarizə məqsədilə Xuzistana doğru hərəkət etdi. Nəsəvi və Cüveyni bu incə mövzuda bir qədər tərəddüd edir və yalnız İbn əl-Əsir yürüşün bütün təfərrüatını verir. Hicri 622-ci ilin məhərrəm ayında (1225-ci ilin yanvar və fevral ayları) Sultan xəlifənin kifayət qədər enerjili Xuzistan hökmdarı Mü-

zəffərəddin Vəch əl Sabunun müdafiə etdiyi Şustarı mühasirəyə aldı. Mühasirə sultan qoşunlarının ölkənin qərb hissələrini talan edənədək uzandı [4, 324].

"Kembric tarixi" nin 5-ci cildində iddia edilir ki, Sultan Cəlaləddinin ilk yürüşləri sülh və kifayət qədər barışdırıcı xarakter daşıyırdı. Əsərə görə, monqol işğalları nəticəsində dağıdılmış Marağada Cəlaləddin xəbər aldı ki, dayısı Yağan Taisi və qardaşı Qiyas əl-Dinin atabəyi şəhərləri mühasirəyə almaq və Həmədan ərazisini Azərbaycandan ayırmaq fikrinə düşüblər. Reydə qardaşı oğlunun çaşqınlığından sonra Yağan Taisi sultan əleyhinə ittifaq bağlamaq üçün, Nəsəviyə görə və daha çox İbn Əl Əsirin ətraflı məlumatlarına görə, o sadəcə dəniz qulduru əleyhinə ittifaq bağlamaq üçün Özbəyin ərazilərinə daxil olmuşdu. Azərbaycanın geniş bir ərazilərini talan etdikdən sonra o, 1224/1225-ci ilin qışında Arranın dəniz sahili ərazisinə, görünür ki, Muğan düzünə keçdi. Azərbaycandan Həmədana gedərkən yol boyunca o, bədbəxt ölkəni ikinci dəfə talan etdi. Yol boyu at, eşşək, öküz və çoxlu qoyun sürüsü apardı. Qarətçi səhər tezdən oyananda çimərlik çətiri kimi başının üstünü almış yaxşı tanıdığı Sultan Cəlaləddinin qoşunları tərəfindən mühasirəyə alındığını gördü. Sultanın Daquqada olmasına hələ də inandığı üçün qəfil yaxalandığından o, Sultan Cəlaləddinin bacısı olan arvadını öz adından xahiş etməyə göndərdi. Arvadı üzrxahlıq dilədi və Təbriz üzərinə hücum üçün Marağaya qayıtdı [4, 325].

"Kembric tarixi"ndən məlum olur ki, Cəlaləddin qonşu ərazilərə, xüsusilə Ermənistana müzəffər yürüşlər etmiş, oradakı Axlat qalasını darmadağın etmişdir. Əsər məlumat verir ki, çətinkeçilən qarlı yollarla Sultan bu ərazilərdə olarkən ona məlumat çatdırılır ki, Türkmənlər Uşniya və Urmiyanı zəbt edib, Təbrizə qədər geniş ərazilərdə soyğunçuluqla məşğuldurlar. Məhz bu səbəbdən 15 dekabrda (ehtimal ki, 1225-cı ilin **E.M.**) o, Əxlat qalasının mühasirəsindən əl çəkmiş və tələsik Azərbaycana qayıtmışdır [4, 329]. Ən Nəsəvinin əsərindən məlum olur ki, Cəlaləddinin baş vəziri Şərəf əl-Mülkün özbaşınalığı Təbriz əhalisini üsyana sövq etmişdir. Digər tərəfdən yüksək rütbəli məmurlar arasında başlanan çəkişmələr ölkənin daxili vəziyyətinə mənfi təsir göstərir, aşağı zümrəni var-yoxdan çıxarırdı. Müəllif yazır ki, yerli feodalları Təbrizdə hakimiyyəti ələ almaq və Eldənizlər dövlətini bərpa etməyə cəhd göstərdilər. Lakin Təbriz yaxınlığındakı qeyri-bərabər döyüşdə üsyançı dəstələr məğlub edildi [9, 198].

"Kembric tarixi" ndə Cəlalədinin monqollara qarşı apardığı müharibələr də əksini tapmışdır. Orada yazılır: "İbn əl-Əsirə görə, hadisələr 1227-ci ildə baş vermişdir. Nə Nəsəvi, nə də Cüveyni İsmaililər əleyhinə yürüşləri qeyd edir, qəribə də olsa, Monqol dəstələrinin Damğan yaxınlığında məğlubiyyəti haqqında danışmır. Bütün müəlliflər monqollarla toqquşmanın növbəti ildə (1228-ci ildə-E. M.) baş verməsi haqqında yekdil fikir söyləyirlər. İbn əl-Əsirə görə, 1228-ci ildə Cəlaləddin Monqollara qarşı xeyli döyüşdə mübarizə aparmışdı: onun məlumatları nisbətən dəqiq sayılır, ancaq bunların əksəriyyəti ona qarşı yönəlmişdi, yalnız sonuncu döyüşdə o, qələbəni təmin edə bilmişdi.

Bu, Nəsəviyə görə, Monqollar üçün Pirr qələbəsi sayılan 625-ci ilin Ramazan ayının 22-də (1228-ci ilin avqustunda) baş vermiş İsfahan döyüşü idi. Nəsəvi Cüveynidən fərqli olaraq müharibənin detallarını verməyə müvəffəq olmuşdur. Təbrizdən İsfahana qədər olan məsafə boyunca sultan öz qüvvələrini topladı və düşmənin yaxınlaşmasını sakitcə gözləməyə başladı. Monqollar şəhərin şərq hissəsində düşərgə salanda, o, münəccimlərinin məsləhətinə qulaq asaraq dərhal döyüşə girmədi [4, 330].

Müharibəni təfərrüatı ilə şərh edən əsər monqolların böyük itki verdiyini, sultan qoşunlarının pərakəndə vəziyyətdə ölkənin müxtəlif hissələrinə dağılması haqqında məlumat verir.

Beləliklə, "Kembric tarixi"ndən əldə edilən məlumatlar onu deməyə əsas verir ki, Azərbaycan Atabəyləri dövlətinin siyasi cəhətdən birlik göstərə bilməməsi ölkəni xarici qüvvələrin hücumuna məruz qoymuşdur. Belə müdaxilələrdən biri səlcuq sultanlarının canişini kimi Orta Asiyada Sır-Dərya çayının aşağı axarlarında onların yerini tutmuş Xarəzm hakimləri və onların yaratdıqları Xarəzmşahlar dövləti tərəfindən XII əsrin sonu, XIII əsrin birinci rübündə olmuşdur. Xarəzmşahların tədricən regionda möhkəmlənməsi müsbət amillərlə yanaşı (dağıdıcı gürcü hücumlarının qarşısının alınması və s.), Azərbaycanın, Arranın, Şirvanın bu dövlətdən asılılığını labüdləşdirir. Xarəzmşah Cəlaləddinin ölümü ilə bu dövlətin varlığına son qoyulsa da, Azərbaycan yeni bir müdaxilə qarşısında aciz qalır.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 cilddə, II c. Bakı: Elm, 1998, 596 s.
2. Bartold V.V. Müsəlman dünyası tarixində xəzəryanı bölgələrin yeri. Bakı: Elm, 1999, 160 s.
3. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti. Bakı: Şərq-Qərb, 2007, 312 s.
4. Cambidge History of İran. Volume 5. Cambridge University press, 1968.
5. İbn al Athir. Al Kamil fit-tarikh. Ed. C. J. Tornberg. 13 vol. Leiden, 1851-1876, p.347.
6. Juzlani. Tabakati-Nasiri. Translation from persian by H.G.Raverty, volume 1-2, Calcutta, 1881.
7. Juvaini. Tarikhi Jahan Gusha. Trans. J.A. Boyle. The history of the world Conqueror. 2 volums, Manchester-1958.
8. Ravandi. Rahət al-sudur wa ayat al surur. Editor. Muhammad İqbal. G. M. S, London, 1921. p. 400.
9. Шихаб ад-дин Мухаммад ан-Насави. Жизнеописание султана Джалал ад-дина Манкбурны. Перевод с арабского, предисловие, комментарии, примечания и указатели З.М.Буниятова. Баку, 1973, 450 s.

## ПОЛИТИЧЕСКОЕ ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНА В XIII ВЕКЕ В ПРОИЗВЕДЕНИИ «КЕМБРИДЖСКАЯ ИСТОРИЯ ИРАНА»

**Э.Р.МУСЛИМОВ**

**РЕЗЮМЕ**

В статье исследуются политические процессы, происходившие в Азербайджане в конце XII – начале XIII вв. Известно, что при изучении истории любой страны важное место занимает источники. В произведении на ряду с историей многих стран также уделяется место истории Азербайджана. При изучении истории Азербайджана XI-XIV вв. можно добавить к одним из важных источников 5 том произведения опубликованная в 1968 году в Англии «Кембриджская история Ирана». Правда и то, что в произведении есть некоторые недостатки. Например, Азербайджан здесь рассматривается как составная часть Ирана, в том числе здесь широко ссылаются на арабоязычные источники. Однако, несмотря на все вышеуказанное данное произведение внесло свой вклад в историю Азербайджана.

**Ключевые слова**: Кембриджская история, политическое положение, государство Хорезымшахов, Азербайджанское государство Атабеков

## POLITICAL SITUATION OF AZERBAIJAN IN THE 13$^{TH}$ CENTURY ON THE BASIS OF “THE CAMBIDGE HISTORY OF İRAN”

**E.R.MUSLIMOV**

**SUMMARY**

Ongoing political processes in Azerbaijan at the end of the twelfth and beginning of the thirteenth centuries is researched in the article. It is known that there is an important place of sources studying the history of each countries. One of these sources, "The Cambridge History of Iran" work. The history of the book, along with many other countries, were included in the history. Published in England in 1968, "The Cambridge History of Iran", the 5th edition may be included of studying of the 11$^{th}$-14$^{th}$ centuries of the history of Azerbaijan. However, work is vividly seen in a number of drawbacks too. For example, Azerbaijan is considered as an integral part of the Iranian world, as well as the written sources have been quoted extensively. However, despite all of the above mentioned period, highlighting the contribution of this work is favored.

**Key words: “**Cambidge History of İran”, Azerbaijan, political situation, The state of Kharazm, State of Atabeys of Azerbaijan